# Vaqif Səmədoğlu koloriti



Nərgiz Cabbarlı

*...bilmək istəyirəm*
*kim nə deyəcək*
*mən öləndə...*

İnanırsınız, bu, həqiqətən də, onu maraqlandırırdı... Ölümüm maraqlandırdığı kimi... Tanrının maraqlandırdığı kimi... Ruhun - İnsanın maraqlandırdığı kimi.... Elə bu səbəbdən də Ölüm də, Tanrı da, Ruh-İnsan da onun yaradıcılığının əsas mövzusu oldu... Və indi də əminəm ki, bu yazılanları hardansa - olduğu O yerdən görür, oxuyur və hər şeydən xəbərdardır... Kim nə deyir, desin, mən buna əminəm...

Adətən, Yaxşı Şeir (yaxşı şair də!) yaddaşda ya sığal kimi, tumar kimi, qayğı kimi qalar, ya da tutarlı bir sillə tək, cırmaq tək, zərbə tək... Hətta sağalmaz və hər zaman ağrısı ilə özünü xatırladan yara tək...



Onun şeirlərində bunların hamısı var idi. Bu gün bir-bir yada saldıqca haldan-hala düşürəm. Amma bunlardan daha çox və daha dərin gözlənilməz jestlər idi. Ağılagəlməz çevrilişlər idi... Və bunları da o dərəcədə səmimiyyətlə edirdi ki, qanunauyğun olmayanı adilik, mümkünsüzü mümkün və adi hal kimi mənimsəməli olurdun. Heyrət içərisində olsan belə. "Taksidən payıza enməyin" mümkünlüyünə, qapısız vətənin olduğuna, "hansı dildə susmaq" sorusunun sıradanlığına, digər kirələr kimi "vicdan kirəsi"nin də ola biləcəyinə inanırdın...

Eyni zamanda əks proses də gedirdi... O, adilikləri, gündəlik olanı elə bir məharətlə şeir Sözünə çevirir, ona elə bir poetik rəng verirdi ki, ana südü kimi halal görünürdü... Sıradan bir cümlə ilə elə bir canlı mənzərə yaradırdı ki, özünü də qəfildən onun bir parçası kimi hiss etməli olurdur...

*Görürsənmi?*
*Amma necə görəsən...*
*Qurtarmayıb hələ də*
*aramızdan keçən qatarın vaqonları...*

Bir də hiss olaraq, duyğu olaraq bir şey ruhuma iz salıb - o şeirlər Tanrını İnsana, İnsanı Tanrıya yaxınlaşdırmaq gücündə, sadəliyində, eyni zamanda da qüdrətində idi. O şeirlər Tanrı ilə İnsan kimi danışmağın mümkünlüyünü nümayiş etdirirdi. Tanrıya da İnsan kimi ərk oluna biləcəyini göstərirdi.

*Kimin var, Ulu Tanrı*
*Məndən savayı bu dünyada?*
*Kimim var səndən başqa*
*bu aləmdə mənim?*
*Sən tək, mən tək,*
*Ulu Tanrı...*

Hətta bəzən küfr görünəcək, küfr adlandırıla biləcək qədər irəli gedirdi Vaqif Səmədoğlu. Amma bununla belə, getdiyi, durduğu o mövqeni, o mərtəbəni adi İnsan halı kimi qəbul etdirməyi, sevdirməyi, haqq qazandırmağı bacarırdı. Sanki İnsanın "Tanrı övladı" olduğunu bir daha xatırlatmaq üçün yazırdı hər zaman... Bir övlad cığallığı, bir övlad ərki ilə:

*Allah,*
*Özüm gəlim,*
*Ya kimisə göndərəcəksən?*

Sanki dinlər və dillər arasındakı sərhəddi qaldıraraq İnsan mərtəbəsini, İnsan Obrazını yaratmağa gəlmişdi...

Amma bu da hamısı deyil... Mənim yadımda daha bir iz qalır... Özümə aid... 1997-ci il, Azərbaycanda siyasi mühitin qaynar bir zamanı və bu qaynarlığın içərisində ən aktiv mövqe nümayiş etdirənlərdən biri, özü də şair. Mən isə mətbuatda yeni-yeni çalışmağa başlayan gənc bir qız. Dəfələrlə Ona zəng edib müsahibə götürmək istəyirəm, mədəni şəkildə "qaçır". Sonra bir gün rəhmətlik müəllimim Arif Əmrahoğluna, o rəhbəri Anara, Anar dostu Vaqifə ağız açır və bizim onunla söhbətimiz AYB-də baş tutur. Düz saat yarım. Söhbət bitəndən sonra da eyni şəxslərdən ibarət ötürmə - bu dəfə əks istiqamətdə baş verir. Vaqif Səmədoğlu Anar müəllimə, Anar müəllim Arif Əmrahoğluna, o da mənə: "Nə yaxşı jurnalist idi bu? Xoşum gəldi, bir dənə də siyasətdən sual vermədi, ancaq ədəbiyyatdan danışdıq".

Sonrakı görüşlərdə yaxasında gəzdirdiyi foto-aparatla şəklimi də çəkdi, sonra ərinməyib, bir gün çıxarıb özümə də verdi, daha sonralar ərinməyib yazılarıma - xüsusilə də bir mövzuda yazdığım məqlələrə görə redaksiyaya zəng də vurdu... Və özü də bilmədən mənim şair haqqında təsəvvürümün canlı bir parçasına çevrildi. Əslində, bu təsəvvürü təkcə məndə deyil, bir çoxlarında dağıtmışdı. Bilmirəm, özü bilirdimi, amma o varlığı ilə bir çox zehinlərdə olan şair obrazını rekonstruksiya etmişdi. Bu obraz - məsələn, mənim uşaqlığımın yaddaşında olan Səməd Vurğun tipi onun timsalında yeni xüsusiyyətlərlə - yaxasındakı aparatla, qəlyanla, sərbəstliklə, sadəliklə, centlmenliklə və s. çulğalaşmış, bir addım da İnsana - oxucuya yaxın gəlmişdi...

Və bu gündən geri boylanıb baxdıqda görürəm ki, iyirmi ildən də artıq davam edən jurnalistlik həyatımda ondan daha maraqlı, ondan daha orijinal, ondan daha səmimi cavablar verən həmsöhbətim olmayıb, əslində. Dünyasını elə bir açardı ki... Bəlkə qaranlıq, yaxına qoymadığı bir neçə bucaq saxlardı, amma sən o bucaqların varlığından xəbərdar olaraq, onların ciddi cəhdlə qorunmasına hörmət hissi ilə çıxardın o dünyadan...

O səbəbdən də... Məncə... Onun şeirləri ilə bərabər söhbətləri də bir yerə toplandıqda şair Vaqifdən də maraqlı bir şəxsiyyət çıxacaq ortaya... O dərəcədə zəngin idi Vaqif Səmədoğlu...

Amma bir şərtlə... Bu müsahibələr toplandığında mütləq onun qeyri-adi, şirin səs tembrini, qəlyanını, o qəlyanın qoxusunu, danışarkən uzaqlara gedən baxışlarını, fikrə gedərkən, etiraz edərkən çənəsini yığmasını və s. və i. da əlavə etməyi bacarsanız... Yəni Vaqif Səmədoğlu koloritini. Bunsuz yarımçıq olacaq... Bunsuz olmaz...

Yeri gəlmişkən... Bizim Vaqif müəllimlə bir məsələdə hər zaman fikir ayrılığımız olurdu. O bir mövzulu yazılara görə hər zaman zəng edir, irad tutur, danlayırdı məni... İntihardan yazdığım üçün.

Mən yazıçı intiharlarından yazır, o isə özü yazmış olsa belə dəfələrlə "yazma" deyirdi. Mən də ,əslində, bir gənclik marağı olan bu mövzu haqqında onun niyə bu qədə qorxa-qorxa, ehtiyatlana-ehtiyatlana danışmasının səbəbini anlamırdım. Sadəcə təbəssüm edərək keçirdim. Nəhayət, bir gün soruşdum: "Axı niyə? Səbəbini deyin, yazmayım".

Mənə heç bir səbəb demədi. Sadəcə onlarla rejissor, aktyor, yazıçı adı çəkdi ki, bu mövzuya sadəcə maraq xatirinə başlayıb, amma sonra özləri həyatlarını intiharla tamamlayıblar. İntihar elə mövzu şəklində də məngənə kimi çəkib onları özünə.

O dedi, kədərlə gülümsədi və mən anladım.

Onun qədər özünü yazan və açan bir şair tanımıram mən. Onun şeirləri bioqrafiasıdır demək istəmirəm, onunla müqayisədə çox bəsit alınır. Onun şeirləri onun taleyidir - özü yazdı, sonra özü yaşadı və özü də tamamladı.

Mən onu bir şair kimi həm də Özünü olduğutək, bəzəksiz-düzəksiz yazdığı üçün, özünə maraqlı olanları, sirrini açmaq, anlamaq istədiklərini birbaşa yazdığından sevirəm. Tam olaraq sevirəm - obrazı ilə, zarafatı ilə, ciddiyyətini qoruyaraq ən ağır anlarında belə insanları güldürə bilmək bacarığı, gizli yumoru, əsl Şair görünüşü və əsl Şair Taleyi ilə birlikdə.

Ehtiram hissi ilə xatırlayıram. Çünki sonluğu ilə belə şeirlərini təkrarladı. Yazdıqlarının nə dərəcədə Özü, Taleyi, Şairliyi olduğunu sübut etdi. Və... İndi hər şey İstədiyi kimidir... Özünün istədiyi...

*İlahi,*
*Dar quyu dibində,*
*Qaranlıq nəm içində,*
*İşıqlı qəm içində,*
*Ağrısız*
*Bir az yatmaq istəyirəm...*

